# Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsi anılıb

## Bakı Dövlət Universitetində



Dekabrın 9-da Bakı Dövlət Universitetində (BDU) ulu öndər Heydər Əliyevin xatirəsini anma günü ilə bağlı tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbir iştirakçıları əvvəlcə ümummilli liderin universitetdəki büstünün önünə əklil qoyub, xatirəsini ehtiramla yad ediblər.

Tədbirdə BDU-nun rektoru, akademik Abel Məhərrəmov ümummilli lider Heydər Əliyevin müdrik siyasətə, dönməz əqidəyə və tarixi uzaqgörənliyə malik şəxsiyyət kimi müasir Azərbaycan dövlətinin qorunması istiqamətində atdığı addımlardan bəhs edib. Görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin elm, təhsil, mədəniyyət sahələrinin inkişafında göstərdiyi əvəzolunmaz xidmətlərdən, bununla əlaqədar imzaladığı fərman və sərəncamlardan, rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı quruculuq proqramlarından danışan rektor ulu öndərin siyasi kursunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıb.

Ulu öndərin xalqımızın həyatında, Azərbaycan dövlətinin formalaşmasında rolundan danışan Milli Məclis sədrinin müavini Bahar Muradova qeyd edib ki, Azərbaycanın hər hansı bir sahəsinə, onun keçmişinə, bu gününə və gələcəyinə baxanda Heydər Əliyev siyasətinin nəticələrini görürük. Azərbaycan dövləti və dövlətçiliyi ümummilli liderin şah əsəridir. Hər bir xalqın, millətin əldə etməyə çalışdığı və qazandığı başlıca sərvəti onun dövlətidir. Bu gün müasir Azərbaycan dövləti var, inkişaf edir və daha artıq nailiyyətlər əldə edir. Bu, müdrik rəhbər Heydər Əliyevin ən böyük xidmətidir.

B.Muradova bildirib ki, bu gün Azərbaycanın qazandığı nailiyyətlərin əldə olunması, müasir Azərbaycanın ərsəyə gəlməsi, müstəqilliyimizin qorunub saxlanılması, dövlətçiliyimizin inkişafı Heydər Əliyev ideyaları əsasında hazırlanan, ölkəmizin milli maraqlarına söykənən dövlət quruculuğu kursuna əsaslanır. Dahi şəxsiyyət Heydər Əliyevin böyük liderlik istedadı, dərin zəkası sayəsində Azərbaycan iqtisadiyyat, elm, mədəniyyət və digər sahələrdə böyük nailiyyətlərə imza atıb. Ulu öndərin yürütdüyü uğurlu siyasət ölkəmizə beynəlxalq aləmdə nüfuz qazandırıb.

Azərbaycan Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərov ulu öndər Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısında tarixi xidmətlərindən danışıb.

F.Heydərov bildirib ki, siyasi müdrikliyinə, zəngin dövlətçilik və idarəçilik təcrübəsinə əsaslanaraq milləti parçalanmaqdan, ölkəni məhv olmaqdan qurtarmış, qısa vaxtda Azərbaycanın dünyəvi, sivil, demokratik dövlət kimi dünyada öz layiqli yerini tutmasına nail olmuş ümummilli lider Heydər Əliyevin nurlu xatirəsi daim xalqımızın qəlbində yaşayacaq.

Tədbirdə digər çıxış edənlər müasir müstəqil Azərbaycan dövlətinin yaranmasında, inkişafında ümummilli lider Heydər Əliyevin əvəzsiz rolundan söz açıblar.

Sonda ulu öndərin keçdiyi mənalı ömür yoluna həsr edilmiş videoçarx nümayiş olunub.

## Azərbaycan Dövlət Pedaqoji Universitetində



Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) rəhbərliyi, professor-müəllim heyəti və tələbə kollektivi Fəxri xiyabanda xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət edib, məzarı önünə əklil və gül dəstələri qoyub. Xalqımızın görkəmli oftalmoloq alimi, akademik Zərifə Əliyevanın da xatirəsi ehtiramla yad edilib. Sonra isə universitetin 2 nömrəli tədris binasındakı Heydər Əliyev Mərkəzində anım mərasimi keçirilib. Anım mərasimində ulu öndər Heydər Əliyevin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

ADPU-nun rektoru, professor Cəfər Cəfərov anım mərasimində çıxış edərək bildirib ki, xalqımızın böyük oğlu, türk dünyasının məşhur siyasət və dövlət xadimi, ulu öndərimiz Heydər Əliyevin vəfatından 13 il keçir. 2003-cü il dekabrın 12-si, sözün həqiqi mənasında xalqımız, millətimiz üçün çox ağır və kədərli bir gündür. Çünki həmin gün qədirbilən xalqımız böyük kədər və sıxıntı içində öz müdrik, vətənpərvər rəhbəri ilə vidalaşırdı. Hamı bir nəfər kimi ulu öndərə öz mənəvi borcunu vermək üçün Fəxri xiyabana üz tutmuşdu, dahi liderimizə olan ümumxalq sevgisi özünü hər yerdə göstərirdi.

Ulu öndər Heydər Əliyev həmişə elm və təhsilə böyük qayğı və diqqət göstərmişdir. Azərbaycanda təhsil sisteminin, o cümlədən ali təhsil müəssisələrinin formalaşmasında, dövrün tələblərinə uyğun yenidən qurulmasında, sürətlə inkişafında, milli kadrların hərtərəfli hazırlanmasında bu böyük şəxsiyyətin əvəzsiz xidmətləri vardır.

ADPU-nun elmi işlər üzrə prorektoru, professor Asəf Zamanov çıxış edərək ulu öndər Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısında göstərdiyi böyük tarixi xidmətlərdən danışıb, onu qüdrətli siyasi xadim, görkəmli dövlət rəhbəri kimi səciyyələndirib.

Anım mərasimində ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilib.

**İctimaiyyətlə əlaqələr şöbəsi**

## Azərbaycan Memarlıq və İnşaat Universitetində



AzMİU-nun Elmi Şurasında ulu öndər Heydər Əliyevin anım günü ilə bağlı tədbir keçirilib. Universitetin rektoru, professor Gülçöhrə Məmmədova tədbiri açıb, ulu öndərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Rektor görkəmli dövlət xadimi, ümummilli lider Heydər Əliyevin irsinin təbliği və xatirəsinin yad olunması məqsədi ilə keçirilən tədbirlərin əhəmiyyətindən bəhs edib. Belə tədbirlərin Heydər Əliyev irsinin öyrənilməsi və təbliği, ideyalarının gələcək nəslə ötürülməsi baxımından vacib olduğu vurğulanıb. O, Azərbaycan dövlətinin memarı və qurucusu, böyük siyasi xadim Heydər Əliyevin ölməz ideyaları, dövlətçiliyimizin möhkəmləndirilməsində əvəzsiz xidmətləri barədə geniş məruzə edib.

G.Məmmədova qeyd edib ki, Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin zəngin irsində və möhtəşəm fəaliyyətində təhsil məsələləri həmişə xüsusi yer tutub. Ulu öndər ölkənin və xalqın taleyində, hərtərəfli tərəqqisində, uğurlar qazanmasında təhsilin xüsusi rolunu, əhəmiyyətini həmişə nəzərə almış, yüksək dəyərləndirmişdir.

Tədbirdə çıxış edən AzMİU-nun prorektoru İsrafil Məmmədov, AzMİU Azad Həmkarlar İttifaqı Komitəsinin sədri Şahin İsmayılov, inşaat texnologiya fakültəsinin dekanı Tahirə Haqverdiyeva, elmi-tədqiqat şöbəsinin müdiri Könül Əliyeva ulu öndər Heydər Əliyevin Azərbaycan dövləti və Azərbaycan xalqı qarşısındakı böyük xidmətlərindən, Azərbaycanın dövlət müstəqilliyinin qazanılmasında və möhkəmləndirilməsində müstəsna rolundan, milli mənəvi dəyərlərimizin təbliği və qorunması sahəsində həyata keçirdiyi genişmiqyaslı tədbirlərdən, dövlət gənclər siyasətinin uğurlu nəticələrindən danışıblar.

Tədbirin sonunda AzMİU-nun rektoru Heydər Əliyevin zəngin siyasi və ictimai irsinin, dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq məfkurəsinin öyrənilməsi və təbliğinin formalaşan gənc nəslə ötürülməsi baxımından əhəmiyyətini bir daha vurğulayıb.

**Mətbuat xidməti**

## Sumqayıt Dövlət Universitetində



Sumqayıt Dövlət Universitetində müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin anım günü ilə bağlı silsilə tədbirlər keçirilməkdədir. Fakültələrdə təşkil olunan ulu öndərin həyat və fəaliyyətinə həsr edilmiş anım tədbirləri və inşa yazı müsabiqəsi də bu qəbildəndir. Bu tədbirlərin davamı olaraq dekabrın 8-də ümummilli lider Heydər Əliyevin vəfatının 13-cü ildönümü qeyd olundu.

Tədbir iştirakçıları əvvəlcə universitetin foyesində ümummilli lider Heydər Əliyevin büstü önünə çiçəklər düzdü, əziz xatirəsini dərin ehtiramla yad etdilər.

Heydər Əliyev mərkəzində təşkil olunan tədbiri giriş sözü ilə açan rektor professor Elxan Hüseynov müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından on üç il keçdiyini xatırladaraq, qeyri-adi şəxsiyyəti, zəngin dövlətçilik təcrübəsi, böyük istedadı ilə fərqlənən xarizmatik liderin hələ sağlığında canlı əfsanəyə çevrildiyini və öz şah əsəri olan müstəqil Azərbaycanı bütün dünyada şərəf və ləyaqətlə təmsil etdiyini bildirdi.

Tədbirdə Azərbaycan tarixi kafedrasının dosenti Elmar Xəlilovun "Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin memarıdır" mövzusunda məruzəsi, fəlsəfə və hüquq kafedrasının müdiri, professor Həsən Sadıqovun, tarix və coğrafiya fakültəsinin II kurs tələbəsi Əli Miriyevin, fizika və elektroenergetika fakültəsinin II kurs tələbəsi Nicat Hüseynovun çıxışları dinlənildi.

Anım mərasimində Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin həyatının, irsinin dərindən öyrənilməsi və təbliği məqsədi ilə tələbələr arasında "Ən yaxşı məqalə" müsabiqəsində yer tutan qaliblər rektor, professor Elxan Hüseynov tərəfindən pul mükafatı və Fəxri Fərmanlarla təltif olundular.

Sonda ümummilli lider Heydər Əliyevin mənalı həyatına və çoxşaxəli siyasi fəaliyyətinə həsr edilmiş "Xalqa bağışlanan ömür" adlı sənədli film nümayiş olundu.

**Mətbuat xidməti**

## Bakıdakı 20 nömrəli məktəb-liseydə



Ümummilli lider Heydər Əliyevin anım günü ilə əlaqədar Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin dəstəyi ilə paytaxtın 20 nömrəli məktəb-liseyin direktoru Yaqut Məmmədovanın rəhbərliyi altında müəllim, şagird və valideynləri Heydər Əliyev Mərkəzinə ekskursiya ediblər.

Şagirdlər müasir Bakının simvollarından biri hesab edilən Mərkəzdə ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinin bütün dövrlərini əhatə edən video və foto arxiv sənədləri, eləcə də müxtəlif eksponatlarla tanış olublar.

Tədbir Heydər Əliyevin irsinin öyrənilməsi, yeni nəslin milli mənəvi dəyərlər və ənənələrə bağlı ruhda böyüməsi, Azərbaycan və dünya tarixi, mədəni və elmi-texniki tərəqqi barədə biliklərinin artırılması məqsədi daşıyıb.

## Bakıdakı 9 nömrəli tam orta məktəbdə



Dekabrın 9-da Bakıdakı 9 nömrəli tam orta məktəbdə ümummilli lider Heydər Əliyevə həsr olunmuş "Sən həmişə bizim qəlbimizdəsən" adlı tədbir keçirilib. Dövlət himni ifa olunduqdan sonra ulu öndər Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

"Heydər Əliyev dünyanın nadir, unikal, seçilən siyasət adamı idi. O, dünya siyasətinə təsir etmək gücündə olan lider idi". Çıxışına bu sözlərlə başlayan məktəbin direktoru Zinyət Əhmədova bildirib ki, bu dahi insan tarixi yazan və yaradan, onu yönəltməyi və fövqündə durmağı bacaran nadir şəxsiyyətlərdən biri idi.

Sonda şagirdlər ulu öndərə həsr olunmuş ədəbi-bədii kompozisiya göstəriblər.

**Rəşad ZİYADOV,**
*"Azərbaycan müəllimi"*

# Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsi anılıb

## Azərbaycan Texniki Universitetində



Dekabrın 9-da Azərbaycan Texniki Universitetində (AzTU) ümummilli lider Heydər Əliyevin xatirəsinin anma günü keçirilib.

Əvvəlcə tədbir iştirakçıları ulu öndərin universitetin foyesindəki büstü önünə tər çiçək dəstələri düzüb, əziz xatirəsini ehtiramla yad ediblər.

Sonra AzTU-da təhsil alan xarici tələbələrin universitetdəki Heydər Əliyev Mərkəzinə ekskursiyası keçirilib. Tələbələr ulu öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotoları sosial şəbəkə vasitəsi ilə paylaşıb, öz ölkələrində yaşayan yaxınlarına məlumat veriblər. Aksiya zamanı AzTU-nun prorektoru İsa Xəlilov müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin həyat yolundan, hər kəsə nümunə olacaq fəaliyyətindən, Azərbaycan xalqı və dövləti qarşısındakı müqayisədilməz xidmətlərindən danışıb. Tələbələrə ulu öndərin fəaliyyətinin, siyasi bacarığının dərindən öyrənilməsi və onun bəşəri ədalətə, sülhə verdiyi töhfələrdən öz ölkələrində bəhs etmələri tövsiyə olunub.

Tədbir "dəyirmi masa" arxasında müzakirə və çıxışlarla davam etdirilib. Rektor əvəzi Xalıq Yahudov bildirib ki, ulu öndər tarixin çətin və keşməkeşli yollarında xalqını ciddi sınaqlardan uğurla çıxarıb, zəhməti, zəkası, fitri istedadı ilə Azərbaycan Respublikasının dünya birliyində özünə layiqli yer tutmasına zəmin yaradıb.

Qeyd edilib ki, müdrik siyasətçi Heydər Əliyev Azərbaycan tarixinin yetirdiyi ən parlaq simalardan biri, türk dünyasının və ümumiyyətlə bütün dünyanın qüdrətli şəxsiyyətidir.

Millət vəkili Fəzail İbrahimli çıxışında Heydər Əliyev irsində vətən sevgisi, azərbaycançılıq hissi, xalq və millət sevgisinin xüsusi yer tutduğunu vurğulayıb. Bildirib ki, Azərbaycançılıq qayəsi Heydər Əliyevin nəzəri irsinin ən yüksək amalı idi.

Daha sonra universitetin metallurgiya və metalşünaslıq kafedrasının müdiri Sübhan Namazov ümummilli liderin zəmanəmizin diplomatiya tarixində silinməz iz qoyduğunu, xalqın yaddaşında ensiklopedik təfəkkürlü, dərin erudisiyalı müdrik şəxsiyyət kimi qaldığını diqqətə çatdırıb.

## Naxçıvan Dövlət Universitetində



Naxçıvan Dövlət Universitetində Azərbaycan xalqının ümummilli lideri, dünya şöhrətli siyasətçi Heydər Əliyevin xatirəsi "Sən həmişə bizimləsən!" adlı ədəbi-bədii kompozisiya ilə yad olunub.

İncəsənət fakültəsinin təşkilatçılığı ilə hazırlanan tədbirdə əvvəlcə dahi şəxsiyyətin xatirəsi bir dəqiqəlik sükutla ehtiramla anılıb, Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib. Ədəbi-bədii kompozisiya dünya siyasət tarixində əvəzsiz yeri olan, müstəqil Azərbaycanın qurucusu və memarı, xalqının xilaskarı Heydər Əliyevin nəsillərə örnək olacaq şərəfli ömür yolundan, Azərbaycanın inkişafına xidmət edən düşünülmüş siyasi fəaliyyətindən bəhs edən ssenari əsasında, universitetin teatr və mədəniyyətşünaslıq kafedrasının müdiri, Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi, filologiya üzrə fəlsəfə doktoru Gülxarə Əhmədovanın rejissorluğu ilə hazırlanıb.

Ədəbi-bədii kompozisiya universitetin müəllimi, Naxçıvan Muxtar Respublikasının əməkdar incəsənət xadimi Şəmsəddin Qasımovun şair-dramaturq Həmid Arzulunun sözlərinə bəstələdiyi "Sən həmişə bizimləsən!" mahnısının ifası ilə başlayıb. Naxçıvan Muxtar Respublikasının əməkdar artisti, dosent Validə Hüseynovanın xormeysterliyi ilə tədbirdə müxtəlif mahnılar səslənib. Solo oxuma ixtisasının IV kurs tələbəsi Rahim Əsgərovun ifasında "Azərbaycan", II kurs tələbəsi İlkin Abdullayevin ifasında "Xalq Heydər söyləyəcək!", ulu öndərin çox sevdiyi "Küçələrə su səpmişəm" xalq mahnısı və digər mahnılar ifa olunub. Aktyorluq ixtisası tələbələri ulu öndərə, onun mübarizələrlə dolu şərəfli həyat yoluna, Azərbaycan xalqı qarşısındakı misilsiz xidmətlərinə həsr olunmuş, Vətəni tərənnüm edən şeirlər söyləyiblər.

**Mətbuat xidməti**

## Akademik Zərifə Əliyeva adına liseydə



Dekabrın 8-də akademik Zərifə Əliyeva adına liseydə ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş "Ulu öndər Heydər Əliyevin şəxsi kitabxanasından Azərbaycan Milli Kitabxanasına hədiyyə etdiyi kitabları" mövzusunda sərgi-konfrans keçirilib. Tədbir iştirakçıları əvvəlcə Fəxri xiyabana gələrək ümummilli lider, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə gül dəstələri qoyublar. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üzərinə güllər düzülüb.

Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə başlayan tədbirdə iştirakçılar ulu öndərin 1995-ci ildə şəxsi kitabxanasından Azərbaycan Milli Kitabxanasına hədiyyə etdiyi kitablarla tanış olublar.

Konfransı giriş sözü ilə akademik Zərifə Əliyeva adına liseyin direktoru Mehriban Vəliyeva açaraq ulu öndərə sonsuz xalq məhəbbətindən, onun məktəbə, təhsil işçilərinə böyük qayğısından danışıb. Qeyd edib ki, ulu öndər mədəniyyətin inkişafına, kitabxanaların zənginləşdirilməsinə xüsusi əhəmiyyət verirdi. M.Vəliyeva dahi rəhbərin ideyalarının Prezident İlham Əliyev tərəfindən qətiyyətlə həyata keçirildiyini bildirib.

Sonra Azərbaycan Milli Kitabxanasının direktoru Kərim Tahirovun "Kitaba və mütaliəyə münasibətdə Heydər Əliyev nümunəsi", BDU-nun kitabşünaslıq və nəşriyyat işi kafedrasının müdiri Knyaz Aslanın "Yeniyetmələrin və gənclərin mənəvi tərbiyəsində Heydər Əliyevin zəngin irsinin əhəmiyyəti", kitabşünaslıq və nəşriyyat işi kafedrasının dosenti Rasim Süleymanovun "Ulu öndər Heydər Əliyev və Azərbaycanın kitab mədəniyyəti" mövzularında məruzələri dinlənilib.

Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun icraçı direktoru Oktay Səmədov, Təhsil Nazirliyinin nümayəndəsi Vidadi Bağırov ümummilli lider Heydər Əliyevin misilsiz tarixi xidmətlərindən, şəxsiyyətinin böyüklüyündən bəhs ediblər.

**Rəşad ZİYADOV,**
*"Azərbaycan müəllimi"*

## Bakıdakı 51 nömrəli tam orta məktəbdə



Bakıdakı 51 nömrəli tam orta məktəbdə ümummilli lider Heydər Əliyevə həsr edilmiş "Nəsillərə örnək insan" adlı anım mərasimi keçirildi. Tədbiri məktəbin direktoru, əməkdar müəllim Tərlan Bayramova açaraq müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin həyat və fəaliyyəti haqqında məlumat verdi. Natiq bildirdi ki, hər yerdə olduğu kimi, rəhbərlik etdiyi kollektivdə də ulu öndərin xatirəsi həmişə ehtiramla yad edilir, bütün siniflərdə müxtəlif tədbirlər, müsabiqələr keçirilir. Bu günlərdə məktəbin şagirdləri Səbail rayon mərkəzləşmiş kitabxana sisteminin təşkil etdiyi inşa müsabiqəsində qalib olmuş, fəxri fərmanla mükafatlandırılmışlar.

Heydər Əliyevin daim təhsilə, elmə diqqət yetirdiyini vurğulayan direktor son illər bu sahəyə qayğının artdığını deyərək Prezident İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın dəstəyi ilə ölkəmizdə yeni məktəblərin inşa edildiyini, təhsil ocaqlarının müasir avadanlıqlarla təchiz olunduğunu diqqətə çatdırmışdır.

Tanınmış alim, professor Əjdər Ağayev Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı xidmətlərinə toxunaraq qeyd etdi ki, zaman keçdikcə ulu öndərin xidmətləri daha aydın görünür.

Sonra məktəblilərin hazırladığı ədəbi-bədii kompozisiya nümayiş etdirildi. Məktəbin şagirdləri İsa Nəzərli, Gülşən Ələkbərli, Türkan Qarayeva, Coşqun Məmmədov və başqaları ulu öndərə, torpağa, Vətənə aid şeirlər söylədilər, mahnılar oxudular.

**Qabil ƏLİYEV**